***UOT-811.11-112***
***Səhifə:50-54***
*https://doi.org/10.59849/2663-8967.2023.2.50*

***Şahnabad İsmayıl***
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,***
***filologiya üzrə fəlsəfə doktoru***
***Sh.ismayil77@gmail.com***

# PROSODİYA VƏ İNTONASİYA ANLAYIŞI

## XÜLASƏ

Məqalədə dilçilikdə prosodiya və intonasiya anlayışı məsələsindən bəhs edilir. Məlum olduğu kimi, prosodiya nitqin vacib elementlərindən biridir. O, nitqin ritmi, tonu, intonasiyası, vurğusudur. Məqalədə qeyd olunur ki, prosodiyada səsin diapozonu, səs tonunun qalxıb enməsi, fasilə (pauza) mühüm amillərdir.

Ümumiyyətlə, prosodiyada bir çox fonetik vasitələr çıxış edir. Prosodiya anlayışı, ilk növbədə, intonasiya nəzəriyyəsi ilə bağlıdır. İntonasiya nitqin sintaktik strukturunu əks etdirir. O, cümlə daxilində fikrin dəqiqləşməsini təmin edir və mühüm əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, adətən prosodiya termini ilə intonasiya termini müvazi şəkildə işlədilir, yəni sinonim terminlər kimi qəbul olunur. Bəzən isə dilçilikdə intonasiya termini ilə prosodiya terminləri diferensiallaşdırılır. Mövzu ilə bağlı bir çox dilçilərin fikirləri araşdırılıb və onlar məqalədə öz əksini tapıb.

***Açar sözlər:*** *prosodiya, intonasiya, nitq, cümlə, funksiya*

**Giriş:** Hər bir cümlə özünün səs tərkibi və heca strukturu ilə yanaşı, müəyyən prosedik, yaxud intonasiya strukturu ilə də xarakterizə olunur. Prosodiya nitqin mühüm elementlərindən biridir. O, leksik-sintaktik vasitələrlə qarşılıqlı əlaqədə diskursun sintaqmatik üzvlənməsində, ünsiyyət iştirakçılarının niyyətinin həyata keçirilməsində əsas rol oynayır.

Dilçilik ədəbiyyatında çox vaxt prosodiya termini intonasiyanın tərkib hissələrindən biri kimi qeyd olunur. Bəzən isə prosodiya ilə intonasiyanı eyniləşdirirlər. Əslində isə, prosodiya daha geniş termindir. İntonasiya özündə prosodik elementləri ehtiva edir. İntonasiya prosodiyanın bir elementidir. Azərbaycan dilçiliyində prosodiya terminınə nisbətən, intonasiya terminindən daha çox istifadə olunur. Əbdüləzəl Dəmirçizadə yazır ki, danışarkən cümlənin təkcə məzmunu deyil, həm də nə məqsədlə söylənilmiş olması cümlədəki sözlərin necə səslənməsinə təsir edir. Yəni səs bəzən ucalır, bəzən isə əksinə, daha da alçalır, bəzən uzanır, bəzən qısalır, bəzən nitq axını kəsik-kəsik tələffüz olunur, bəzən isə, əksinə, calaşıq bir silsilə təşkil edir və beləliklə də, ibarə və ya cümlə boyu səslənmənin müxtəlif çalarlıqlı və müxtəlif kəmiyyətli dalğaları yaranır. Bununla da, nitqin ritmik və melodik cərəyanı formalaşır ki, buna avazlanma (intonasiya) deyilir [1, s.165]. Göründüyü kimi, intonasiyanı "avazlanma" adlandıran dilçi intonasiya terminini ümumilikdə prosodiya anlamında işlətmişdir. Bəzən isə dilçilikdə bu terminlər diferensiallaşdırılır. "Tatar qrammatikası" kitabında qeyd olunur ki, sözün prosodiyası şifahi nitqdə vurğu, cümlənin prosodiyası isə sintaktik vahidlərin intonasiyasıdır [2, s. 96-102].

Prosodiya termininin işlənmə tarixi XX əsrin 70-ci illərinə aiddir. Belə ki, mətn dilçiliyinə marağın artması ilə prosodiya termini dilçiliyə gətirilmiş oldu [3, s. 401]. Mətnin prosodiya cəhətdən öyrənilməsi müasir mətn dilçiliyinin aktual problemlərindən biridir. Prosodiyada səsin intensivliyi, səsin tonallığı mühüm amillərdən sayılır. Nitqin tempi, səsin diapazonu burada aparıcı seqmentlərdir. Ümumiyyətlə, prosodiya nitqin superseqment elementlərinin sisteminə aiddir. Prosodiya hecanın qurulmasından mətnin qurulmasına qədər nitqdə tətbiq olunan fonoloji vasitələrin məcmuyudur. Prosodiyanın əlamətlərinə səs tonunun qanunauyğun olaraq qalxıb və enməsi də daxildir. Onu da qeyd edək ki, onun elementləri çoxdur. Prosodiyanın əsas elementləri aşağıdakılardır: 1) pauza; 2) tembr; 3) səsin yüksək tonu; 4) səsin uzanması; 5) intenslivlik;

Akademik A.Axundov “Azərbaycan dilinin fonetikası” adlı əsərində prosodiya ilə intonasiyanı eyniləşdirir. O qeyd edir ki, fövqəlxətti fonetik vahidlərin, başqa sözlə, prosodik ünsürlərin (melodik, ritm, intensivlik, vurğu, temp, tembr, fasilə və s.) kompleksindən ibarət olub, müxtəlif sintaktik məna və kateqoriyalar, ekspressiv və emosional münasibətlər ifadə etməyə xidmət göstərən fonoqrammatik vasitəyə intonasiya deyilir [4, s. 292]. Dilçi intonasiyanın elementlərinə melodika, ritm, intenslivlik, vurğu, temp, tembr, durğunu aid edir [4, s. 292-295] .

A.Axundovdan fərqli olaraq akademik Kamal Abdulla isə intonasiyanı prosodiyanın bir elementi kimi səciyyələndirir. Dilçi qeyd edir ki, danışıq nitqində aktual üzvlənmə vasitələri kimi, aktuallaşmağa xidmət göstərən bir sıra faktorlar var ki, onları da prosodik aktuallaşma vasitələri kimi qeyd etmək olar. İntonasiya, temp, vurğu və s. prosodik elementlər bu qəbildən olan vasitələr hesab olunur” [5, s. 264] Akademik yazır ki, prosodik elementlərə intonasiya, temp, vurğu, ahəng və başqa fonetik ünsürlər daxildir və onlar danışıq nitqində xüsusi əhəmiyyət kəsb edirlər. Prosodik aktuallaşma zamanı cümlənin quruluşunda remanın seçilib ayrılması adətən müvafiq cümlə üzvünün pauza ilə fərqləndirilməsi hesabına başa gəlir [5, s. 119].

Azərbaycan dilçiliyində bu sahədə araşdırma aparan Nərgiz Hacıyeva yazır ki, prosodik əlamətlər intonasiyanın komponentləridir və onların xüsusi fonetik-üslubi kateqoriyalar kimi ayırmağa heç bir ehtiyac yoxdur. Mətnin intonasiya quruluşu onun struktur formal tərəfi ilə uyğunluğunu mümkün edir, belə ki, intonasiya mürəkkəb elementlərin kompleksini, müxtəlif mənaları, o cümlədən sintaktik səviyyədəki mənaları ifadə edir. İntonasiyanın digər səviyyələrlə qarşılıqlı əlaqəsinin üzə çıxması onun mətnyaratmada mahiyyətini açır. Bu məqsədlə bağlılıq və tamlıq kateqoriyasının formalaşmasında əsas və daha universal vasitələrdən biri prosodiyadır [6, s. 591].

İntonasiya dilin söyləm qatında fəaliyyət göstərən bir sıra prosodik elementlərin toplusudur. İntonasiya linqvistik bir anlayış kimi mürəkkəbdir. O, nitqin ritmik-melodik hissəsidir. “İntonasiya danışanın tələffüz etdiyi müxtəlif tonlu, tembrli və güclü səslərin qanunauyğun ardıcıllığı olan elə bir fonoloji vasitədir k, onun köməyi ilə sözlər və söz birləşmələri bütöv fikrə çevrilir və dinləyən tərəfindən tam bir fikir kimi dərk edilir” [7, s.264] .

İntonasiya kommunikativ vahid olan cümlənin formalaşmasında və fərqləndirilməsində mühüm rol oynayır. Nitqimizdə intonasiyanın köməyi ilə müxtəlif semantik mənalar, çalarlar ifadə edə bilirik. İntonasiya bir növ məqsədə xidmət edir. Məlumdur ki, cümlə məhz məqsəd və intonasiyaya görə müəyyən qruplara bölünür. “...cümlələrdə intonasiyanın fərqlənməsinə səbəb, daha doğrusu, müxtəlif intonasiyaları doğuran amil həmin cümlələrdə yürüdülən məqsəddir. Məqsəd intonasiyanın əsasıdır, intonasiya isə, öz növbəsində, məqsədin göstəricisi, müəyyənləşdiricisidir. Danışan nitqindəki cümlələrin hansı münasibətlə deyildiyini dinləyiciyə çatdırmaq üçün cümləni müəyyən intonasiya ilə ifadə etməli olur” [ 8, s.81].

Doğrudan da, əgər intonasiya fərqi olmasa dinləyici *Zəng vuruldu* və *Zəng vuruldu?* cümlələri arasındakı fərqi başa düşməzdi, çünki burada cümlələr eynidir və nitq materialı da heç nə ilə fərqlənmir. Bütün bunlar onu göstərir ki, cümlələrin təsnifində intonasiyanın rolu böyükdür. “İntonasiya cümlələrdə o qədər incə emosional münasibətlər yaradır ki, heç bir formal qrammatik vasitə həmin münasibətləri o şəkildə yarada bilməz. İntonasiyanın belə ciddi təsir qüvvəsi ilə əlaqədar olaraq, bəzi dərsliklərdə, eləcə də Azərbaycan dilinə aid yazılmış orta məktəb qrammatikalarında cümlələrin bu bölgüsü yalnız intonasiya ilə əsaslandırılır, intonasiyanı doğuran məqsəd isə qeyd edilmir” [8, s.82].

“İntonasiya istənilən kommunikativ vahidə bütövlük verir və onun tam qavranılması üçün şərait yaradır” [9, s.253]. Ünsiyyət vahidi kimi cümlə intonasiyaya görə bir bütövlük təşkil edir.

Rus dilçisi L.R.Zinderə görə, “İntonasiya və cümlənin mənası arasındakı sıx əlaqə onu ünsiyyətin vacib amillərindən birinə çevirir. Cümlənin dərk edilməsi üçün onun tərkibindəki bütün sözlərin tanınması vacib deyildir. Kontekst eşidilməmiş sözü bərpa etməyə imkan verir, hətta “bərpa” baş verməsə də, cümlənin mənasının başa düşülməsi istisna edilmir ...bu zaman intonasiya vacib rol oynayır” [10, s.268]. Adətən intonasiyanı iki aspektdən araşdırırlar. Birinci aspekt kommunikativlikdir. İkinci aspekt isə emosionallıqdır [5, s.102-103]

İntonasiya nitqdə fonasiya əlamətlərindən biri hesab olunur. O, söz sırası tipli qrammatik kateqoriya kimi çıxış edir. İntonasiya vasitəsilə müxtəlif xarakterli, kommunikativ tipli cümlələr, onların emosional boyaları ifadə edilir. Onun daşıdığı məna, danışanın mövcud şəraitə, söhbətin mövzusuna və s. uyğun olaraq müxtəlif intonasiya tipləri yaranır. Danışan şəxsin öz həmsöhbətinin əsəblərinə və ya hərəkətlərinə təsiri intonasiyada müxtəlif şəkildə təzahür olunur. Təsir dairəsinə əsasən iradi mənalı intonasiyalar iki qrupa bölünür: nəqli və əmr intonasiyaları. Bir çox dilçilər belə bir fikir irəli sürür ki, intonasiya münasibət və hisslərimizi ifadə etmək üçün istifadə edilir, məsələn, eyni bir cümlə müxtəlif şəkildə deyilə bilər; "əsəbi", "kədərli", "xoşbəxt", "sevincli" səslənə bilər.

İntonasiyanın subyektiv mahiyyətli olması fikrini irəli sürən rus dilçisi L.R.Zinder bu məsələyə öz münasibətini belə ifadə edir: "Eyni mətni hər bir artist müxtəlif cür oxuyur… lakin fərqli oxunuşlar heç də mətnin qavranılması üçün əhəmiyyətsiz deyildir. Eyni mətnin fərqli intonasiya ilə tələffüz edilməsi onun oxucular tərəfindən fərqli qavranılmasından asılıdır. Eyni mətni müxtəlif intonasiya ilə tələffüz etmək mümkündür. Ancaq bu halda o, eyni bir cümlə kimi qalacaqmı? Əlbəttə, yox. O, hər dəfə bir qədər fərqli olacaqdır" [10, s.268]

Məlum məsələdir ki, melodiya və vurğunun yerin dəyişməklə bir cümləni müxtəlif çalarda təqdim etmək mümkündür. Düzgün tonda deyilməyən cümlə səhv anlaşılmaya və söhbətin bitməsinə səbəb ola bilər. B.Siertsema "Teaching of İntonation" adlı dissertasiya işində qeyd edir ki, insanlar arasında yaranan münaqişələrin 90%-i yanlış intonasiya, cəmi 10%-i isə ya fikir ayrılığından yaranır. [11, s.3] .

"Cümlənin bu və ya digər bir kommunikativ tipə (təsdiq, sual və s. ifadə edən) aid olması onun məzmunu və funksiyası ilə müəyyənləşir və canlı nitqdə leksik, qrammatik və müxtəlif intonasiya ünsürlərini müəyyən qarşılıqlı təsiri sayəsində aydınlaşır" [12, s.214].

İntonasiya sözləri fərqləndirməyə yox, müxtəlif qrammatik və kommunikativ tipli cümlələri fərqləndirməyə xidmət edir. İntonasiya nə deməyimizdən çox, necə deməyimizlə bağlı linqvistik anlayışdır. Hər bir dilin özünə xas intonasiyası var.

Amerika dilçisi D. Bolinger "Intonation and Its Uses" kitabında intonasiyaya belə bir tərif verir: "İntonasiya bədən dili və üz ifadəsi ilə sıx bağlı olan emosiya və münasibət bildirən qeyri-ixtiyari səs-simvollu sistemdir" [13, s. 1].

İntonasiya dinləyiciyə danışanın nə demək istədiyini başa düşməsinə yardım edir. Onun vasitəsilə informasiya ötürənin emosiyaları və münasibəti ifadə olunur. Bu əsasən intonasiyanın modal funksiyası adlanır və şifahi nitqə xüsusi "məna" verir. Dilçilikdə intonasiyanın bir neçə funksiyası göstərilir ki, onları aşağıdakı şəkildə qruplaşdırmaq olar: Kommunikativ funksiya; 2. Modallıq funksiya; 3. Sintaktik funksiya; 4. Məntiqi funksiya.

İngilis dilçisi Piter Rouç öz əsərində intonasiyanın bu funksiyaları haqqında geniş bəhs etmişdir. Lakin fərqli terminlərdən istifadə edib. Kommunikativ funksiyanı o, mühakimə (diskurs) termini ilə, sintaktik funksiyanı qrammatik, modal funksiyanı münasibət bildirmə, məntiqi funksiyanı isə vurğulayıcı funksiya termini ilə adlandırmışdır.

İntonasiyanın kommunikativ funksiyası sayəsində verilmiş şəraitdə hər hansı bir cümlənin sual növü, əmr, xahiş və ya nida cümləsi olmasını müəyyən etmək mümkündür. Beləliklə, o, cümlənin kommunikativ növlərini müəyyən edir. Cümlədə informasiya müxtəlif formalarda verilir. Bu zaman intonasiyanın müxtəlif кommuniкativ növləri meydana gəlir. Onlar qrammatiк və semantiк amillərlə bir-birilə bağlı olsa da, öz nisbi müstəqilliklərilə şərtlənir. İntonasiyanın müxtəlif кommuniкativ növlərinə xəbərvermə, elanetmə, söyləmə, nağıl etmə, repliкa, bildiriş, raport və s. daxildir.

İntonasiyanın sintaktik (qrammatik) funksiyası isə cümlənin sadə, tabeli mürəkkəb cümlə və ya tabesiz mürəkkəb cümlə olmasını müəyyən edir. O, eləcə də cümlədə həmcins üzvlərin olub-olmamasını, ara sözləri və birləşmələri göstərir, vasitəsiz nitqi müəllif sözlərindən ayırır. İntonasiyanın nitqdəki ən mühüm xidməti onun sintaktik funksiya daşımasıdır. Nitqimiz bu funksiya vasitəsilə bütöv cümlələrə və sintaqmlara bölünür. Cümlə bir və ya bir neçə sintaqma parçalana bilər. Hər hansı bir cümlənin ardıcıl şəkildə bir və ya bir neçə sintaqma parçalanması intonasiyanın bölücü – "sintaqmlara bölmə" funksiyasını xarakterizə edir. İntonasiyanın qrammatik sintezləşdirici funksiyası əsas etibarilə cümlənin ayrı-ayrı hissələrinin ümumi melodik ahəng əsasında birləşməsini təmin

etməkdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, nitq axının sintaqmlara bölünməsi heç də təkcə intonasiya ilə deyil, həm də semantik və sintaktik amillərlə sıx bağlıdır. Əgər nitq axını parçalanarkən onun məna tərəfi unudularsa, onda dinləyənə informasiya düzgün çatmayacaq və ünsiyyət baş tutmayacaq.

İntonasiya vasitəsilə danışanın fikri, həmçinin onun dinləyənə və ya auditoriyaya münasibəti modallıq funksiya vasitəsilə ifadə olunur. İntonasiya eyni zamanda cümlədə məntiqi vurğunun yerini də müəyyən edir. Bu intonasiyanın məntiqi funksiyası ilə bağlıdır. Məntiqi vurğu nitqdə ən vacib sözü fərqləndirir. Məhz çatdırmaq istədiyimiz fikir məntiqi vurğulu söz üzərində cəmlənir. Məntiqi vurğunun düzgün qoyulmaması verilən cümlədə fasilələrin, ahəngdarlığın pozulmasına gətirir. Beləliklə, intonasiyanın məntiqi funksiyası dedikdə məhz tonun dəyişməsi hesabına yaranan məna dəyişməsi nəzərdə tutulur. Bir sözlə, bu funksiyada intonasiya məntiqi vurğunu müəyyən bir sözdən digər bir sözə keçirərək əsas mənanı həmin sözdə cəmləşdirə bilər.

Rus dilçisi V.Vinoqradov intonasiyanın dörd əsas funksiyasını qeyd edir:

1. Qrammatik sintezləşdirici funksiya; 2. Sintaqmlara bölmə funksiyası; 3. Predikativlik funksiyası; 4. Modal – fərqləndirici funksiya [14, s.91].

N.V.Çeremisina intonasiyanın əsas komponentlərinə məxsus dörd cəhəti fərqləndirir. Birinci cəhət intonasiyanın xüsusiyyəti olub, müxtəlif dünya dillərinə xasdır və emosiyaları, affektiv və qeyri-affektiv sözləri, mənalı vahidləri ifadə edir. Bu, intonasiyanın musiqililiyidir. İkinci cəhət məzmundan asılı olaraq intonasiyanın xüsusiyyətidir. O, nitqin sintaktik quruluşunu, onun cümlələrə ayrılması və ritmik qurulmasını müəyyənləşdirir. Bu, linqvistik və ya fonoloji intonasiyadır. Üçüncü cəhət intonasiyanın müxtəlif nitq üslublarına məxsusluğunu –temp, vurğu, fasilə, dərin mənanı bildirir. Dördüncü cəhət intonasiyanın fərdi xüsusiyyətidir ki, bu zaman müxtəlif səsləri intonasiya ilə fərqləndirmək olar. [15, s.1].

Professor Fəxrəddin Veysəlli fikrinə görə, intonasiya cümlə daxilində iki funksiya yerinə yetirir: fraza xarici və fraza daxili. İntonasiyanın fraza xarici funksiyası cümlənin kommunikativ tərtibatına yönəldiyi halda (nəqli, davamedici, sual), fraza daxili funksiya cümlənin daxili təşkilinə yönəlmişdir. Cümlə intonasiyasının xarici funksiyası universal xarakter daşıyır, cümlə intonasiyasının daxili funksiyası isə bu və ya digər dilin daxili qanunauyğunluqlarına tabedir. İntonasiyanın cümləni təşkil etməsi onun xarici funksiyasına, cümlənin tərkib hissələrinə bölməsi isə cümlə daxili funksiyasına aiddir. [7, s. 268]

Dilçilikdə bəzən intonasiya sırf fonetikanın tədqiq obyekti kimi qeyd edilir və onun sintaksisdəki rolu azaldılır. Amma qeyd etmək lazımdır ki, cümləni formalaşdıran əsas əlamətlərdən biri olan intonasiya sintaksis üçün mühüm rol oynayır. Təsadüfi deyil ki, cümlələr məhz məqsəd və intonasiyaya görə də müxtəlif növlərə bölünür ki, bu bölgünün də əsas vasitələrindən biri intonasiyadır.

**Nəticə.** Beləliklə, intonasiya danışıq aktında müşahidə olunan elə bir hadisədir ki, onun vasitəsilə cümlənin məna tutumu, onda ifadə olunmuş predikativ münasibətlər, kommunikativ təyinatlar, modallıq, həmçinin leksik tərkib və sintaktik quruluş özünün konkret ifadəsini tapır. Ümumiyyətlə, cümlə, xüsusən, şifahi nitq axını üçün intonasiyanın rolu danılmazdır. İntonasiya olmadan rabitəli nitq formalaşmaz və nitqdə cümlənin sərhədini müəyyən etmək olmaz.

## ƏDƏBİYYAT

1. Dəmirçizadə Ə. “Müasir Azərbaycan dili”, Şərq-Qərb, Bakı, 2007
2. Татарская грамматика. 3-ёх томах. Том. 1. Казан: Татарская книжная издателство, 1993
3. Большой энциклопедический словарь. Языкознание/ Глав.ред. В.Н.Ярцева. М.: Издательство “Большая Российская энциклопедия” 1998.
4. Axundov A.A. Azərbaycan dilinin fonetikası. – Bakı: Maarif, 1983.
5. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. – Bakı: Maarif, – 1999.
6. Hacıyeva N. Fonetik üslubiyyat // Müasir Azərbaycan dili. c.1. Bakı: Elm, 2019
7. Veysəlli F.Y. Seçilmiş əsərləri, I c., Bakı: “Mütərcim”, 2009.

8. Abdullayev Ə. Z. Müasir Azərbaycan dili. IV hissə, Sintaksis / Ə. Abdullayev, Y. Seyidov, A. Həsənov. Bakı: Şərq-Qərb, 2007.
9. Бабаев Дж.М. Интонации как прагматический компонент семантической структуры предложения // – Bakı: Filologiya məsələləri, −2015. № 2, – с. 253
10. Zиндер, Л.Р. Общая фонетика: Учеб. пособие / Л.Р.Зиндер. – 2-е изд. – Москва: Высш. школа, 1979.
11. B.Siertsema “ Teaching of İntonation” dissertation work.
12. Jones D. "An autline of English phonetics" 1957.
13. Bolinger.D, İntonation and İts Uses”, Stanford,California, 1989
14. Виноградов В. В. Вопросы синтаксиса современного русского языка / – Москва: Учпедгиз, 1950.
15. Черемисина Н.В. Аспекты характеристики основных компонентов интонации. Вопросы лексикологии и синтаксиса // Уч. зап. серия филологических наук, №8(12), т. XVIII, Уфа: «Башкирское книжное издательство», с. 187-195.

***Шахнабат Исмаил***

***Понятие просодии и интонации***

***Резюме***

В статье рассматривается вопрос о понятии просодии и интонации в лингвистике. Как известно, просодия – один из важных элементов речи. Это ритм, тон, интонация, акцент речи. В статье отмечается, что в просодии важными факторами являются диапазон голоса, поднятие и опускание тона голоса, пауза.

Вообще в просодии используется множество фонетических приемов. Понятие просодии связано, прежде всего, с теорией интонации. Интонация отражает синтаксическую структуру речи. Он обеспечивает ясность мысли в предложении и имеет важное значение. Также нужно обратить внимание, что обычно термин просодия и термин интонация используются в балансе, то есть они рассматриваются как синонимы. Однако, иногда в лингвистике с термином интонация дифференцируют термины просодия. Взгляды многих лингвистов на эту тему были исследованы, и они нашли свое отражение в статье.

***Ключевые слова:*** *просодия, интонация, речь, предложение, функция*

***Shahnabad Ismail***

***The concept of prosody and intonation***

***Summary***

The article deals with the question of the concept of prosody and intonation in linguistics. As you know, prosody is one of the important elements of speech. This is the rhythm, tone, intonation, accent of speech. The article notes that in prosody, the range of the voice, the raising and lowering of the tone of the voice, and the pause are important factors.

In general, many phonetic means are used in prosody. The concept of prosody is connected, first of all, with the theory of intonation. Intonation reflects the syntactic structure of speech. It provides clarity of thought in a sentence and is essential. It should also be noted that usually the term prosody and the term intonation are used in the balance, that is, they are considered synonyms. However, sometimes in linguistics, the terms prosody are differentiated with the term intonation. The views of many linguists on this topic have been investigated, and they are reflected in the article.

***Keywords:*** *prosody, intonation, speech, sentence, function*

***Çapa tövsiyə edən:*** ***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***

***Rəyçilər:*** ***fil.,ü.f.d. V.C.Abbasova***
***fil.,ü.f.d.,dos. T.Ə.Cəlilova***